Yarışda ölkəmizi Təhsil Nazirliyinin Kürdəmir Peşə liseyinin fiziki tərbiyə rəhbəri Əlisahib Əliabbasov təmsil edib. Veteran güləşçimizin yarışdığı çəki dərəcəsində 10 ölkədən tanınmış idmançılar qələbə uğrunda mübarizə aparıblar. Uğurlu çıxışı ilə yadda qalan güləşçimiz bürünc medal qazanaraq fəxri kürsüyə qalxıb. Bu, Əlisahib Əliabbasovun veteranlar arasında dünya Çempionatında qazandığı 7-ci bürünc medaldır.

Güləşin yunan-roma növü üzrə veteranlar arasında dünya çempionatı 7 yaş qrupu üzrə keçirilir. Burda ən cavan güləşçinin 35, ən yaşlısının 70 yaşı var.